# Fəxr etməyə dəyər

Bəzi televiziya kanalları və kütləvi informasiya vasitələri oğurluq, quldurluq və digər cəmiyyətimizə yaraşmayan halları təkrar etməkdən sankı zövq alır, bu yolla tamaşaçı, oxucu toplamağa cəhd edirlər. Çox təəssüf ki, bu zaman əsasən gənclərin və yeniyetmələrin adı hallanır. Ancaq öz fəaliyyəti, əməli, davranışı ilə cəmiyyətimizə baş ucalığı gətirən gənclər və yeniyetmələr daha çoxdur və onlarla hər gün rastlaşırıq.

Bu günlərdə Qəbələ şəhərində mobil telefonumu itirmişdim. Arxamca iki nəfər məktəb yaşlı qızın «dayı-dayı» deyərək qaçdığını gördüm. Onların birinin əlində mənim mobil telefonum vardı. Adlarını soruşdum, biri digərini göstərərək: - Dayı telefonunuzu o qız tapıb, adı Vüsələdir dedi. Təşəkkürümü bildirdikdən sonra öyrəndim ki, Abdullayeva Vüsalə İlqar qızı Nicat Apayev adına Qəbələ şəhər 4 nömrəli məktəbin 8-ci sinfində oxuyur. Atası İlqar Abdullayev Qarabağ müharibəsi əlilidir.

Belə övlad üçün qürur duymağa valideynləri-nin və müəllimlərinin haqqı var.

**Sədiyar SƏFƏRƏLİYEV,**
**təqaüdçü.**

# Maraqlı dünyamız

Dahi fizik Albert Eynşteynin Yaponiyada qaldığı otelin xidmətçisi ona Nobel mükafatına layiq görülməsi barədə şad xəbəri çatdırır. Böyük alim pulu olmadığı üçün muştuluq olaraq qeyd dəftərçəsinin bir vərəqinə nə isə yazaraq xidmətçiyə verir və deyir: «Kim bilir, bəlkə bu vərəq sənə Nobel mükafatından daha çox xeyir verəcək». Bu günlərdə Eynşteynin «Uğur dalınca qaçmaq yox, sakit və sadə həyat xoşbəxtlik gətirir» sözləri yazıb imzaladığı həmin vərəq yapon xidmətçinin qohumları tərəfindən hərracda bir milyon üç yüz min dollara, «Arzu varsa, çıxış yolu da var» sözləri yazılmış vərəq isə iki yüz min dollara satılıb.

* * *

59 yaşlı Andrev Uiles 1995-ci ildə riyaziyyatçı Fermatın "son teoremi" adı verilən 358 illik teorimini sübut edib. Bu teorem dünyanın ən çətin riyaziyyat teoremi hesab olunurdu. Alim riyaziyyat sahəsindəki fəaliyyətlərinə görə "sir" ləqəbini alıb və 15 mükafatın sahibidir.

# Portağalın orqanizmə xeyri

İnsan orqanizmi üçün meyvə yemək sağlamlığın bərpa edilməsi deməkdir. Bu baxımdan portağaldan istifadə olunması da çox faydalıdır.

Portağal dəri, ağciyər, mədə və kolon daxil olmaqla şiş xəstəliklərinə qarşı mübarizə vasitəsi kimi faydalı meyvədir. Nizamlı portağal yemək, böyrək xəstəliklərini önləyir və böyrək daşı riskini azaldır.

Naringi və portağal yemək, qaraciyər xəstəliklərinə qarşı mübarizəni gücləndirir. Həmçinin kalium baxımından zəngin



olan portağal lifli bir meyvə olduğundan, xolesterolu salmağa kömək edir, ürək funksiyalarının tənzimlənməsinə stimul verir.

Portağalda vitaminlərin və polifenolların bolluğu, infeksiyalara qarşı immuniteti gücləndirir.

Portağal həm də qan təzyiqinin tənzimlənməsi üçün köməkçi vasitədir. Vitaminlərlə zəngin olan bu sitrus meyvəsi göz sağlamlığınızı, eləcə də güclü bir antioksidan kimi dərinizi qoruyur və yaşlanmanı önləyir.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2018-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir

İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# İdman xəbərləri

## Əvəzedicilər 6 qol vurub

Əvəzedicilərin çempionatında X turun növbəti oyunları keçirilib. Yarışın liderləri "Qəbələ" və "Zirə" dəfə fərqləniblər.

Meydan sahibləri isə yalnız görüşün sonlarında təsəlli qolu



Bakıda qarşılaşıblar. Əvvəllər keçirdiyi 9 matçdan yalnız birində xal itirən həmyerlilərimiz bu dəfə də aşkar üstünlüyə malik olublar. Birinci hissədə komandamız 4 cavabsız qol vurub. Fasilədən sonra da üstünlüyünü davam etdirən "qırmızı-qaralar" daha iki vurmağı bacarıb.

Beləliklə, ən yaxın izləyicisini 6:1 hesabı ilə yenən "Qəbələ" 10 matçda 9-cu qələbəsini qazanıb. Bu qələbələrdən 7-si böyükhesablıdır. 27 xala malik komandamız 2-ci pillədən 8 xal öndə qərarlaşıb.

## U-14-dən böyükhesablı qələbə

Litvanın paytaxtı Vilnüsdə keçirilən ənənəvi "Ateitis Cup" beynəlxalq turnirinə yekun vurulub. "Qırmızı-qaralar" Belarusun "İsloç" komandası ilə görüşüb. Komandamız bu qarşılaşmada böyükhesablı qələbə qazanıb - 4:0. Futbolçumuz Emil Süleymanov "Ateitis Cup"ın ən yaxşı yarımmüdafiəçisi mükafatına sahib olub. Yarışın qalibi adını isə İtaliyanın "Atalanta" klubu qazanıb. Litvanın Milli Futbol Akademiyası 2-ci, Latviya "Dauqavpils"i 3-cü yeri tutub.

## Alim Nəbiyevdən uğurlu debüt




"Qəbələ" İdman Klubunun təmsilçisi Alim Nəbiyev növbəti yarışa qatılıb. 23 yaşlı idmançımız Fransanın Lion şəhərində kikboksinq üzrə təşkil olunan "Glory 47" yarışmasında qüvvəsini sınayıb. Alim Nəbiyev Fransa təmsilçisi Cimmi Vienotla qarşılaşıb. Yarımorta çəki dərəcəsində keçirilən döyüş 5 raunddan ibarət olub. Gərgin keçən qarşılaşmada Alim 4:1 hesabı ilə qələbə qazanıb.

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Abuşev Murad Əlibəy oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 606 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Hacıalılı Bələdiyyəsinin 23 mart 2006-cı il tarixli 03 saylı qərarı ilə Şamlı kənd sakini **Cabbarov Nüsrət İsa oğluna** verilmiş torpaqların alqı-satqısına dair akt və həmin bələdiyyənin 23 mart 2006-cı il tarixli 03 nömrəli **qərarı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Daşınmaz əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Rayonu Ərazi İdarəsi tərəfindən Əkbərov **Hilal Hüsü oğluna və ailə üzvlərinə** verilmiş MH seriyalı 0002535 nömrəli 20 fevral 2007-ci il tarixli (reyestr № 406013001035, qeydiyyat № 190700632) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** və **torpaq sahəsinin 20 fevral 2007-ci il tarixli 406013001035 reyestr nömrəli (inventar nömrəsi 07) pasportu** itdiyi üçün etibarsız sayılır.

Mamaylı kənd sakini **Alcanov Müğdət Qədir oğlu** tərəfindən Qəbələ Rayon Kooperativ Cəmiyyətinə həmin kənddəki mağaza binasının satış pulunun ödənilməsi barədə 15dekabr 2005-ci il tarixli 591396 nömrəli **mədaxil orderi** itdiyi üçün etibarsız sayılır.

Azəritifaqın İdarə heyətinin Qəbələ Rayon Kooperativ Cəmiyyətinə məxsus mağaza binasının Mamaylı kənd sakini **Alcanov Müğdət Qədir oğluna** satılmasına razılıq verilməsi barədə 15 dekabr 2005-ci il tarixli 329 nömrəli **qərarı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1900